# Şəhid məzarı ziyarət olunub

**Vətən müharibəsi şəhidi Axundzadə Kənan Hamil oğlunun doğum günündə Lənkəran Şəhər İcra Hakimiyyətinin əməkdaşları, habelə yerli ictimaiyyətin nümayəndələri onun ailəsinə baş çəkiblər.**





Qəhrəman övladımızın məzarı ziyarət edilib, önünə gül dəstələri düzülüb və ruhuna dualar oxunub. Şəhər icra hakimiyyətinin rəsmiləri eyni gündə şəhid Kənan Axundzadənin adını daşıyan şirniyyat sexinin açılışında da iştirak ediblər.

Şəhid Kənan Axundzadə Vətən müharibəsində göstərdiyi cəsarətə və şücaətə görə Prezident, Ali Baş Komandan İlham Əliyevin sərəncamlarına uyğun olaraq ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 6 avqust.- S.12.